Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Azərbaycan milli kitabxanası

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 03-04 (1181-1182) 18 yanvar 2024-cü il | Qiymətì 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# SÖZÜN ŞƏDDAT OBRAZI, YAXUD, SƏNƏTKARIN PORTRET CİZGİLRİ ÖZ YAZILARINDA



**Hələ otuz il bundan əvvəl bir yazımda belə bir epiqraf işlətmişdim; "Hər kəsin birinci ehtiramı öz adına olmalıdır". Sonralar bu qənaətimin müxtəlif mübahisələrə səbəb olduğu da yadımdadır. Biri deyirdi ki, alınma sözlərdən gələn elə adlar ola bilər ki, tərcümədə yarıtmaz bir məna verər, bəs onda necə olsun?! Deyəsən, qismən haqlı etirazdır.**

Ona görə qismən deyirəm ki, şəxsiyyət güclüdürsə, mənəvi keyfiyyətləri ilə daha ali, daha uca mərtəbə kəsb edirsə, onun adının daşıdığı hərfi məna heç bir əhəmiyyət kəsb etmir. Şəxsiyyət yüksək ali məqam təbiəti ilə ada hörmət gətirir.

Mən də yazmışam. Başqa müəlliflərin də qeydlərində rast gəlmişəm; elə adlar var ki, daşıyıcısı obraz olaraq adın ən güclü müdafiə sipərinə çevrilir.

Xüsusi maraq doğuran adlar var, həmişə diqqətimizdə olan belə adların daşıyıcıları var. Bunlardan biri də bizim Şəddat müəllimdir. Və elə onun adı da çox uzaq keçmişdən, şərq düşüncəsindən gəlir. Daha az qala tam əfsanəvi mahiyyət daşıyan adın ilkinliyinə qayıtmaq niyyətim yoxdur. Amma bizim Şəddat müəllim öz adının xüsusi ləyaqət, yüksək ehtiram və hörmət mahiyyətini həyatı ilə, bitkin xarakteri və zəngin təbiəti ilə çoxdan tanıdıb. Biz onu adının çəkilməsi ilə hörmətli bir obraz kimi həmin andaca düşüncəmizə gətiririk.

Şəddat müəllim kimdir? O, həyatının indiki mənəvi mərtəbəsinə hansı yollardan keçib gəlib? Şəddat müəllimin gələcək nəsillər üçün hansı örnək keyfiyyətləri var? Özündən sonra cəmiyyət üçün mənəvi irsi hansı ölçüdədir, dəyərdədir?

Bəlkə də bu suallara bir-bir cavab verməli olsaq, bütöv bir həyat romanını yazmalı olarıq. İnsafən, Şəddat müəllim müasirlərinin diqqətindən kənarda olmayıb. Onun həyatını sözün həqiqi mənasında xüsusi sevgi ilə öyrənən və yazan müəlliflər heç də az deyil; İsaq Əmənullayev, Fatma Həsənqızı, Sevda Əlibəyli, Ceyhun Zallı, Mahmud Allahmanlı, Elçin Mehrəliyev, Yədulla Ağazadə, Ağamir Cavad, nəhayət, elə bu sətirlərin müəllifi və etiraf edim ki, bu qeydləri yazdığım anlarda yaddaşıma gələn adları çəkdim. Şübhəsiz, çoxlu müəlliflər var ki, onların Şəddat Cəfərovun yaradıcı portretini mükəmməlliklə təqdim edən yazıları var. Bu istiqamətdə sıralanmanı davam etdirməli olsaq, mövzudan kənara çıxmış olarıq.

Sözümün canı nədir? Mən Şəddat Cəfərovu bir məktəb hesab edirəm. Və sözümün canında da onun bir məktəb olmaq mərtəbəsinə qalxanacan keçdiyi yola xüsusi diqqət ayırmaq deyil. Ancaq onun fərqli tərəflərdən məktəb olmağına diqqəti yönəltməkdir.

Əvvəla, Şəddat müəllim şəxsiyyət etibarı ilə bir məktəbdir; az qala, otuz ilə yaxınlaşan, tanışlığımızın və dostluğumuzun tarixində onun kimsədən həsəd qarışıq qeybətini eşitməmişəm, görməmişəm. Mümkün qədər haqqında söhbət açdığı hər hansı bir kimsənin lap alt qatda qalan, az qala heç kimin görmədiyi bir üstün cəhətini tapıb ona güvənərək danışması... zənnimcə, bu çox böyük keyfiyyətdir.

Yaradıcı insandır; istər birbaşa ixtisası ilə bağlı olaraq poliqrafiya elminin Azərbaycanda intişar tapması istiqamətində fəaliyyətinə görə, istər texniki sahədəki səmərələşdirici ixtira xarakterli yeniliklər gətirmək sahəsindəki xidmətlərinə görə və nəhayət, istərsə də, ədəbi-bədii düşüncə istiqamətindəki yaradıcılıq fəaliyyətinə görə... Çox zəngin və hərtərəfli insandır. Bəlkə də burada çoxları üçün az tapılan bir keyfiyyəti də ayrıca qeyd etmək lazımdır. Bu qədər üstünlüklərin müqabilində o, sözün həqiqi mənasında sadə və yumşaq, mehriban və həlim, ən başlıcası, qarşısına çıxan hər hansı bir kimsəyə humanist yanaşması ilə fərqlənən şəxsiyyətdir. Başqaları təkcə bu keyfiyyətlərdən biri ilə öyünər və heç özünün "dərisinə" də sığmaz. Amma Şəddat müəllim **bütün bu çoxcəhətli üstünlüklərin yaratdığı mükəmməllik mahiyyətində özünü tam sıradan insan, özünü xalqına, vətəninə və ən başlıcası, dövlətinə borclu bilən bir obrazdır. Bəli, adamdır, şəxsiyyətdir - demirəm, "obrazdır" deyirəm. Ona görə ki, cəmiyyət həmişə bu tipli adamların intizarında olub.**

Davamı 2-ci səhifədə

# SÖZÜN ŞƏDDAT OBRAZI, YAXUD, SƏNƏTKARIN PORTRET CİZGİLƏRİ ÖZ YAZILARINDA

*Əvvəli 1-ci səhifədə*

. Belələrinin varlığını arzulayıb, istəyib ki, haradasa bir çətinliyi həll etmək gücündə olan bir dostu olsun. Və Şəddat müəllimin əsas üstünlüyü ondadır ki, onunla dostluğa bəlkə heç ehtiyac da yoxdur. Sadəcə həqiqəti de, doğrunu müdafiə et və bunun üçün kömək istə. Onda Şəddat müəllim mütləq sənin tərəfində olacaq.

Əlbəttə, Şəddat müəllimin Azərbaycanda poliqrafiya elminin inkişafına təkan verən çox dəyərli elmi əsərləri var. Xüsusilə kitab çapının elmi mahiyyəti, kitab çapının estetikası... və s. məsələlərlə bağlı elmi əsərlərin hər birini ayrıca təhlil etmək də olar. Və elə bununla da onun Azərbaycan poliqrafiyasına gətirdiyi xüsusi elmi yenilikləri təqdir etməklə onun kimliyini görmək bəs edərdi.

Amma axı Şəddat müəllim həm də yazıçı-publisistdir. Özü də yazmaqdan, yaradıcılıqdan yorulmayan söz adamıdır. Təbiət etibarı ilə çox nikbindir. Ən adi söhbətin əsnasında çox maraqlı bir yumorun, miniatür bir hekayənin strukturunu yarada bilir, özü də real həyat cizgiləri əsasında.

Şəddat müəllim gözünü açandan söz içərisindədir. Demək olar ki, Azərbaycanın bütün söz-sənət adamları ilə ən yaxın ünsiyyətdə və münasibətdə olub. Müasirimiz olan və onunla ünsiyyətdən məmnunluq duyan ən görkəmli şairlərimiz Şəddat Cəfərovun poetik obrazını yaratmaqdan məmnunluq duyublar. Zəlimxan Yaqubun, Cavad Zeynalın, Şəkər Aslanın, Ağamir Cavadın və eləcə də özümün də daxil olduğum poetik söz sahiblərinin çox gözəl poetik tərənnümünə layiq görülüb Şəddat Cəfərov. Bütün bunlar öz yerində...

Şəddat Cəfərovun indiki yaşı ilə müqayisədə son dövr ədəbi-publisistik yaradıcılığı ayrıca bir tədqiqatın mövzusudur. Onun "Əzəldən bağlıyam sözə" adlı beşcildliyi son illərdə nəşrə hazırlanıb. Yaxın ünsiyyətdə olduğu, kitablarını nəşr etdiyi müəlliflərin əsərlərinə yazdığı rəylər, ədəbi-tənqidi düşüncələr, publisistik esselər mənəvi mühitimizi zənginləşdirmək baxımından çox dəyərlidir.

Çoxcildliyin artıq üç cildi nəşr olunub. Dördüncü cildi mətbəədədir. Beşinci cild hazırlıq prosesindədir. Onun "Əzəldən bağlıyam sözə" beşcildliyinin texniki hazırlığı və tərtibatı işi mənim üzərimə düşüb. Redaktə işinin məsuliyyətini məmnunluqla daşımışam. Professor Mahmud Allahmanlı isə Şəddat müəllimin nəşrə hazırlanan kitablarının hər birinə dəyərli rəylər yazıb. Həm də geniş və əhatəli şəkildə.

Şəddat müəllimin ədəbi-publisistik yaradıcılığının da özünəməxsus xüsusiyyətləri var. O, hər hansı bir mövzunu dövrümüzlə, zamanımızla ahəngdar müstəvidə təhlil edir. Hər hansı bir kitabın, əsərin cəmiyyət üçün nə kimi əhəmiyyət kəsb etdiyini mütləq diqqətdə saxlayır. Onun özü ədəbi-bədii yazılara, söz sənətinə təbiət etibarı ilə necə doğma olduğunu, yaxın olduğunu yazılarında da etiraf edir: "Bəri başdan etiraf edirəm ki, elmi tədqiqatlarımdan, elmi araşdırmalarımdan kənar, ümumiyyətlə, poliqrafiya sahəsi ilə bağlı düşündüklərimi yazıya gətirmək, kitab halına çevirmək düşüncəsindən savayı, digər mövzularda kitab yazmaq fikrim olmayıb. Yəni nə yumorlu hekayələr, nə də ədəbi düşüncələr, eləcə də publisistik qeydlərlə kitab yazmaq haqqında düşünməmişəm. Ancaq həyat mənə özü tələb qoyub. Yəni, gördüyünü niyə yazmırsan, bildiyini niyə yazıya gətirmirsən, müşahidələrini sən yazmasan başqa kim yazacaq? Bu tələblər məni həmişə düşündürüb. Məni həmişə yazı ayağına çəkib". Nə qədər gözəl, səmimi yanaşmadır? Yazı məni ayağına çəkir. Gör müəllif hansı səmimiyyətlə yazını ucalığa qaldırır. Yazının cazibəsini kənardan görür və yazının onu ruhuna, varlığına çəkməyini fəxarətlə bəyan edir. Bu da onu göstərir ki, müəllif əslində anadangəlmə olaraq yazıya doğma olub, istəkli olub. Yazıya sevgili bir duyğu ilə yanaşıb. Onun varlığından, təbiətindən gələn bir istək onu həmişə yazının cazibəsində saxlayıb.

Çoxları üçün qəribə gələr. İndi Şəddat müəllim ömrünün ahıl çağlarında fəal ictimai fəaliyyət göstərir. Demək olar ki, bütün ədəbi-bədii tədbirlərdə iştirak edir. Parlaq çıxışları ilə dinləyicilərinə xoş əhval bəxş edir. Televiziyaya, radioya müsahibələr verir. Bütün bunlar onu göstərir ki, Şəddat Cəfərov öz düşüncəsini daim səfərbər bir gücdə saxlayır.

Yuxarıda qeyd etdim ki, Şəddat müəllim çox ünsiyyətcil adamdır. Sözündə, söhbətində işıq gördüyü hər hansı bir şəxslə elə səmimi münasibət qura bilir ki, bu münasibət sonralar həm dostluğa çevrilir, həm də işgüzar münasibətlərin yaranmasına səbəb olur. O özünün yaradıcılıq sirlərini də xüsusi bir səmimiyyətlə bəyan edir. Və bizə aydın olur ki, nə üçün Şəddat Cəfərov yazmaqdan, yaratmaqdan, ədəbi, elmi və praktik fəaliyyətdən kənarda deyil. Hətta Vaqif Yusifli demiş, "bir çox cəhətdən fəallığı ilə çoxlu cavanlara da örnək olmaq gücündədir". Zənnimizcə, Şəddat müəllimin indiki ahıl çağlarını xarakterizə edən ən yaxşı onun özünün portret cizgilərini təqdim edən elə öz düşüncələridir. Bu düşüncələrin içərisində artıq qeyd etdiyim kimi onun yaradıcılıq sirləri də kifayət qədər öz əksini tapır: "Görünür, təbiətimdə olan canlı ünsiyyətlilik, insanlara səmimi münasibət adamlarla ünsiyyətdə müşahidə etdiyim kəm-kəsirlər sanki mənə deyirdi ki, əgər sən yazmasan, qeyrisi yazmasa, bu kəm-kəsirlər necə düzələcək? Mən də elə bu səbəbdən ayrı-ayrı vaxtlarda düşündüklərimi yazmağa başladım. Bir də gördüm ki, çoxlu yumorlu hekayələrim qələmə alınıb. Əslinə qalsa, həmin hekayələrin qəhrəmanları mənim dostlarımdı, elə mənim özüməm. Başqa sözlə, zaman mənim zamanımdı, məkan da harda varamsa, elə oradır". Nə qədər aydın, nə qədər obyektiv yanaşmadır. İnsan harada fəaldırsa, harada özünü ifadə edə bilirsə, demək, həmin məkan ona çox yaxındır, çox doğmadır. İnsan nə vaxt ruhuna, varlığına yığılmış duyğularını sözə gətirə bilirsə, demək, elə o zaman, o vaxt onun özünə doğma olan zamandır. Özünə ruh etibarı ilə yaxın olan vaxtdır. Bu mənada Şəddat Cəfərov bütün səmimiyyəti ilə öz müasirlərinə doğmadır, yaxındır.

Şəddat müəllim Azərbaycana miniatür kitab ənənəsini də gətirib. Çox dəyərli, sözün həqiqi mənasında ədəbi abidələr sırasında özünə yer almış maraqlı miniatür kitabların da naşiridir. Xüsusilə, miniatür kitablara bağlı qeydlərində informasiya tutumu ilə fərqlənən məqamlar da az deyil: "Burada bir neçə kəlmə miniatür kitab sənəti ilə bağlı fikirlərimi oxucularla bölüşmək istərdim. Miniatür kitab dünya kitab mədəniyyəti tarixində özünə məxsus yeri olan bir sahədir. Kitabı sevən, kitabın bəşər tarixində, insan həyatında rolunu, yerini bilən hər kəs kitabın müqəddəsləşməsi, sevilməsi üçün ən müxtəlif formalar, tərtibat yenilikləri axtarıblar. Bunlardan biri də miniatür kitabdır". Şəddat müəllim Azərbaycanın kitab çapı tarixinə miniatür kitab mədəniyyətinin daxil olmasında özünün xidmətlərini təvazökarcasına qeyd etmir. Halbuki o, hələ 70-ci illərdə xüsusi tapşırıq əsasında Leninlə bağlı miniatür kitabın da hazırlanmasında bilavasitə iştirak etmiş və belə bir nəşri Azərbaycanın kitab tarixi üçün reallaşdıra bilmişdir. Özü də doğru olaraq qeyd edir ki, Azərbaycanda kitab mədəniyyətimiz kifayət qədər yeniləşmiş dünyada yeri var. Amma kitab çapının elmi mahiyyətinin öyrənilməsində demək olar ki, ilk cığır açanlardan biridir. Çox doğru deyir ki: "Mən kitab çapı ilə bağlı tədqiqatlar aparmışam. Kitab çapının gözəlliyini, estetik mahiyyətini tədqiq edərək geniş ictimaiyyətə çatdırmaq üçün kitablar yazmışam".

Onu da deyim ki, Azərbaycanda kitab mədəniyyətinin tarixi kifayət qədər qədimdir. Az qala 300 ilə yaxındır ki, Azərbaycanda kitab nəşri bir tarix olaraq öyrənilir".Bəli, həqiqətən indi mədəniyyətimizin ən müxtəlif sahələri əhatəli şəkildə öyrənilir. Elə kitab çapı ilə bağlı məsələlər də tədqiq oluduqca Şəddat müəllimlə bağlı səhifələr daha çox diqqəti cəlb edir. Zənnimcə, bu sahədə gələcək daha geniş araşdırmalara şərait yaranacaq. Və o zaman bizim kitab mədəniyyətimizin tarixində Şəddat Cəfərovun yeri ayrıca öyrəniləcək. Yeri gəlmişkən onu da deyim ki, Şəddat Cəfərovun özünün qeyd etdiyi kimi az qala 3 əsrlik tarixi olan kitab mədəniyyətimizin şərəfli yolu ilə müqayisədə miniatür kitab mədəniyyətinin tarixi çox cavandır. Və Şəddat müəllim öz qeydlərində miniatür kitab muzeyinin xüsusi yerini də diqqətdən kənarda qoymur. Bu da onun sözün həqiqi mənasında vicdanlı ziyalı mövqeyinin təzahürüdür. Ən yaxşısı onun öz qeydlərini oxumaqdır: "Zaman keçdikcə həyatımızın ən müxtəlif sahələrinə dair kitablar işıq üzü görür. Amma miniatür kitab sənəti bizdə xeyli cavandır. Bu sahə Z.Salahovanın təşəbbüsü ilə miniatür kitab muzeyi yaradılandan sonra xüsusi maraqla inkişaf etdirilir. Onu da deyim ki, Z.Salahovanın öz kolleksiyası əsasında yaratdığı miniatür kitab muzeyi bu gün Azərbaycana gələn hər kəsi maraqlandırır. Qonaqlar bu muzeyin eksponatlarına xüsusi diqqət göstərir. Azərbaycanda kitab mədəniyyətinin inkişaf mərhələsi kimi baxırlar bu sahəyə". Zənnimcə, bu qeydlər Şəddat Cəfərovun, ümumiyyətlə, mədəniyyət tariximizə münasibətindəki ziyalı mövqeyinin ən yaxşı təzahürlərindən biridir. Miniatür kitab sənəti ilə bağlı qeydləri düşünürəm ki, yaddaşımızın ən dəyərli xəzinə timsallı mənbələrindən biri kimi heç vaxt yaddan çıxmayacaq. Bu qeydlərdə istifadə olunan statları biz Şəddat müəllimin "Əzəldən bağlıyam sözə" kitabının birinci cildinə yazdığı müəllif qeydlərindən əxz etmişik. Amma o, yorulmadan, usanmadan yazı üzərində işini həmişə ardıcıllıqla davam etdirib.

Şəddat Cəfərov nə üçün sözə, kitaba bu dərəcədə bağlıdır? O özü bu ritorik suala, oxucu üçün cavab tələb etməyən suala "Əzəldən bağlıyam sözə" kitabının ikinci cildində daha aydın cavab verir. Elə kitaba yazdığı müəllif qeydinə verdiyi başlıq ilə: "Sözü sevdim, kitabı sevdim". Sonra da elə bu başlıq üçün mətni sanki şərh üçün yazır: "Mənim yazıya, kitaba həvəsim hələ orta məktəb illərindən başlayıb. İlk gənclik çağlarında tay-tuşlarımla, həmyaşıdlarımla aramızda bağlı olan söhbətləri, yaxud başımıza gələn, gəlməyən, başqasının həyatından müşahidə etdiyim əhvalatları sonradan elə həmin həmyaşıdlarıma danışmağa başlayırdım. Onlar da maraqla dinləyirdilər. Özləri də etiraf edirdilər ki, axı bunlar bizim başımıza gəlib, heç bu qədər maraqlı olduğunu bilməzdik". Yaradıcılıq sirri deyirik. Sən demə, yaradıcılıq sirri adlanan nədirsə, o əslində bizim həyatımızın bir parçasıdır. Yəni müşahidə edən, görə bilən dəqiq və düzgün yanaşırsa, baş vermiş olay, göz önündən keçən mənzərə haradasa sözə çevrilmək imkanındadır. Bunun üçün bəsirət gözü açıq olmalıdır. Bunun üçün yazıçı istedadı gərəkdir, sənətkarlıq gücü olmalıdır. Yalnız bu zaman həyatın bir parçası gəlib sözə çevrilmək imkanı qazanar. İnsafən Şəddat müəllim güclü mütaliəsi, sərrast həyati müşahidələri ilə fərqlənən qələm adamı olduğu üçün yazının hədəfinə düşən məqamları diqqətindən buraxmır.

Çox görmüşəm. Deyirlər ki, ehtiyatlı olun. Şəddat müəllim bir zarafatın əsasında bir hekayəti, özü də gülməli hekayəti asanlıqla qələmə alır. Doğrudur, onun çoxlu yumorlu hekayələri var ki, məhz müasiri olduğu insanlarla ünsiyyətdə yaranmış orijinal mənzərələrin əks-sədası kimi yazıya çevrilib.

Şəddat müəllim bizim "Kredo" qəzeti ilə həmişə, ardıcıl ünsiyyətdədir. Yaradıcılıq münasibətindədir. Ən müxtəlif dövrlərdə yaşamış, yaxud müxtəlif yaradıcılıq istiqamətlərində fəaliyyət göstərmiş müəlliflərin haqqında yorulmadan yazır və bu yazıların hamısına biz çox həvəslə qəzetin səhifələrində yer ayırırıq.

Nə gizlədim, həmişə düşünürdüm ki, uzun illərin dostluğunda çox böyük çətinlikləri dəf etmiş Şəddat müəllim bəs nə üçün elə özünün nəşr etdiyi mənim kitablarım haqqında yazmır? Axır ki, ötən il bir sıra silsilə yazılarını özünün nəşr etdiyi mənim kitablarıma həsr etdi. Bu da məni sözün həqiqi mənasında qürurlandırdı.

Yuxarıda Şəddat müəllimin bir şəxsiyyət kimi xarakterinin ən cəlbedici və qabarıq görünən tərəflərinə diqqəti yönəltməyimi müəyyən qədər bildirmişdim. Amma bir yazıda bu qədər əhatəli, sözün həqiqi mənasında geniş yaradıcılıq imkanı olan bir insanın yaradıcı portretini yaratmaq o qədər də asan deyil.

Sözün həqiqi mənasında Şəddat Cəfərov cəfakeş insandır. Az qala tarixə qovuşmuş, artıq çoxdan əbədiyyət sakini olan insanlar haqqında da çox böyük səmimiyyətlə və məhəbbətlə yazır. Bu günümüzün dəyərli adamlarını həmişə diqqətdə saxlayır. Eləcə də kitablarını nəşr etdiyi gəncləri də təqdie etməyi unutmur. Bu baxımdan yanaşanda onun Sevindik Nəsiboğlu haqqında sonsuz sevgi ilə yazdığı qeydlərini də yada salmağı özümə borc bilirəm. Sevindik yeniyetmədir. Sözün həqiqi mənasında çox istedadlı vətən övladıdır. Amma Şəddat Cəfərov onun parlaq istedadına güvənərək kitablarına çox böyük inamla rəylər yazır. Onun obrazlarını təqdir edir. Maraqlı düşüncələri ilə həyata münasibətini geniş və əhatəli şərh edir.

Bu da onu göstərir ki, Şəddat Cəfərov sözün həqiqi mənasında sənətə və sənətkara nə yaşına, nə də məhşurluğuna görə fərq qoymur. Onun üçün istedad, səmimiyyətlə yazılmış əsərlər xüsusi əhəmiyyət kəsb edir. Bu günlərdə Şəddat Cəfərovun yeni bir kitabı çapa hazırlandı. Bu kitab "Yazının güzgü gücü" adlanır və cənub bölgəsində yaradıcı ziyalılara rəhbərlik edən Qafar Cəfərlinin yaradıcılığına həsr etdiyi bu kitaba mən də düşüncələrimi ifadə edən bir ön söz yazdım. Həmin qeydlərdə Şəddat Cəfərovun mənəvi keyfiyyətlərini xüsusilə təqdir etməyə çalışmışam və çox böyük səmimiyyətlə onun barəsində ürək sözlərimi yazmışam: Şəddat Cəfərov İkinci Cahan savaşından üzü bəriki zamanın övladıdır. O, tarixin ən sərt dönəmlərinin şahidi olub. Mənsub olduğu ailənin yaşadığı repressiya acıları, İkinci Cahan savaşının qurbanına çevrilmiş doğmaları və nəhayət, müharibə dövrü və müharibədən sonrakı ilk onilliklə insanların aclıq və yoxsulluq acılarına düçar olmasını o indi də unutmur, ayrı-ayrı vaxtlarda düşüncələrini məhz həmin dövrlərin şahidi kimi qələmə alır. Şəddat Cəfərov çətinliklə olsa da, həm əmək fəaliyyətində, həm də öz üzərində çalışmaq, təhsil almaq yollarında inadla həyatına davam edib. Taleyin ona bəxş etdiyi bütün maddi və mənəvi sarsıntılar qarşı dözüm göstərib. Seçdiyi ixtisas sahəsində ən yüksək dərəcəli mütəxəssis olub, Azərbaycanın ilk poliqrafçı alimi kimi şöhrətlənib. Elə poliqrafiya sahəsində də, nəşriyyat işində də böyük təşkilatçılıq bacarığı ilə yüksək vəzifələr daşıyıb. Jurnalist, publisist və yazıçı kimi Şəddat Cəfərov heç vaxt qələmdən ayrılmayıb. Onun düşüncəsinə təsir edən, müşahidəsindən keçən həyat həqiqətləri zaman-zaman ədəbi-bədii yazılara çevrilib. Son illərdə ədəbi düşüncələr sahəsində də uğurla qələm işlədir. "Əzəldən bağlıyam sözə" adlı beşcildliyinin üç cildini nəşr etdirib. Dördüncü cildi çap ərəfəsindədir. Və beşinci cild üzərində uğurlu ədəbi fəaliyyətini davam etdirir. Onun ədəbi tədqiqata cəlb etdiyi bir çox görkəmli sənətkarlar var ki, onların əsərlərinin nəşrinə xüsusi diqqət və vaxt ayırıb. Təqdim olunan bütün kitabları səbr və dəyanətlə oxuyur və nəhayət, düşüncəsində iz buraxan ədəbi nümunələr haqqında yazılarını da qələmə alır. Bu yazıların bir çoxu sənətkarın beşcildliyində özünə yer alıb. Elə bilirəm ki, bu qeydlərim Şəddat Cəfərovun yaradıcı təbiətini göstərmək baxımından nəinki indi, elə gələcəkdə də diqqəti cəlb edəcək. Çünki bu qeydlərdə Şəddat Cəfərovun inadkarlıqla zəhmətsevərliyi, dəqiq müşahidələrlə istedadının vəhdəti kifayət qədər təqdir olunub. Onun qələmlə doğmalığı elə bu günün özündə də təqdiredici bir hal kimi diqqətimizi cəlb edir.

Sözün həqiqi mənasında elə müəlliflər var ki, qələm onların əlində silahdır. Amma bu silah öldürmək üçün deyil, həyatı qorumaq üçündür.

Sözün həqiqi mənasında Şəddat Cəfərov üçün söz sənəti, yaradıcılıq və nəhayət, qələm cəmiyyəti qorumaq, həyatı hifz etmək məqsədi güdür. O bütün hallarda özünü cəmiyyət üçün mənən borclu bilir.

Bu da sözün Şəddat obrazı. Əlbəttə, bütün hallarda həyatdakı obrazı qədərincə, olduğu kimi sözə gətirmək çətindir. Nə qədər dərinliklərə varırsan, bir o qədər yeni cizgilər meydana çıxır. Biz Şəddat müəllimin mənəvi zənginliyini həm də onun öz qeydləri əsasında təqdim etməyə üstünlük verdik.

Söz əbədidir. Nə qədər dünyanın dəyərini özündə ehtiva edən insan var, söz də olacaq. Demək, sözə sədaqətlə bağlı olan hər kəs öz sözündə yaşayacaq.

Söz əbədidirsə, sözün sahibi də əbədidir.

Əslində insanlıq, həm də insanı uca edən insanlıq bir dəyər olaraq sözdən keçir və sözlə yaşarlıq alır. Biz Şəddat Cəfərovu sözün həqiqi mənasında mükəmməl insan obrazı olaraq həm öz sözündə, həm də öz sözümüzdə görürük.

**Əli Rza Xələfli**
**16.01.2024**